# HÜSEYN SÖZLÜ – 70


Hüseyn Sözlü

## OLSUN

Aşiq qardaş, götür köklə sazını,
Bulaq zümzüməsi sazında olsun.
Baxçada bülbülün, dağda kəkliyin,
Səsi bu dağların yazında olsun.

Olma gəl vəfasız, əhdini pozan,
Yaxşını mədh eylə, tərifə ozan.
Haram tikə yemə ay elim, obam,
Halallıq çörəkdə, duzunda olsun.

Dosta dost kimi bax, xəyanət etmə,
Yolun düz yol olsun, "əyri yol" getmə,
Yaxşılıqda ad qoy, pislikdə itmə,
Kişilik hər kəlmə sözündə olsun.

Ruhunu oxşasın çalınan cəngi,
Yayılsın dağlara səsin ahəngi,
Gözəl-göyçək qız-gəlinin səhəngi,
Mərcan bulaqların gözündə olsun.

Sözlü, sən əzəldən sevdin həyatı,
Qarış-qarış gəzdin bu kainatı,
Səyrit bu dağlarda yor köhlən atı,
Nəfəsin dağların izində olsun.

## YOLLAR

Atalar məsəli "körpü sal, yol çək",
Pisiylə yol çəkib, körpünü salma.
Qəlbin təmiz olsun, düzüylə qol çək,
Dolaşıq yollara meyilli olma.

Yollar bir ağacın qolu, budağı,
Bəhərli olanı, bəhərsizi var.
Yollar hər bir kəsin dözüm, sınağı,
Qəhərli olanı, qəhərsizi var.

Ömür yoldaşıdır sanki bizimlə,
Üstündə saldığım izlər itməyir,
Yollar var yandırır odu, közüylə,
Yollar var tükənib heç vaxt bitməyir.

Hər ömür bir yolun yolçusu olur,
Yollar tükənməzdi, tükənən ömür.
Günəş əbədidir, Günəş tək qalır,
Hər alışıb yanan, vaxt gəlir sönür.

Sözlü, misralarda əridi ömrün,
Sən də bu yolların yolçusu oldun.
Darıxma az olar ömrü pis günün,
Özün yolçu oldun, həm də ki, yoldun!

## ULU DAĞLAR

Yenə gəldim qucağına,
Doğma Şərur diyarına,
İllər çəkib sınağına
Əyilməz qürurlu dağlar
Ulu dağlar, ulu dağlar.

Hər biri bir tamaşadır,
Hər biri tarix yaşadır,
Yan yanadır, baş-başadır
Düzülübdür qatar-qatar
Ulu dağlar, ulu dağlar.

Sarı qaya, gəlin qaya,
Boylanırlar Günə, Aya,
Qürur verir Arpaçaya
Baxıb çağlayır bulaqlar,
Ulu dağlar, ulu dağlar.

Dan yerindən günəş doğar,
Gözəl diyar, doğma diyar,
Hər fəslində gözəl çağ var
Gül-çiçəyin yığar qızlar
Ulu dağlar, ulu dağlar.

Xəbər verin ər dağına,
Sözlü gəlib ayağına,
Süfrə açsın qonağına,
Buz bulaqlı sulu dağlar,
Ulu dağlar, ulu dağlar.

## DÖNÜBDÜ ÜZÜ DÜNYANIN

Bu dəm qarışıb aralıq,
Dərdim olub bir dəryalıq
Məgər bunu görmür xalıq?
Dönübdü üzü dünyanın.

Soldurandı vaxtlı, vaxtsız,
Eyləyəndi bəxtli, bəxtsiz,
O haqlıdır, sənsə haqsız
Keçəcək sözü dünyanın.

Dərdin varsa yananı yox,
Dərd içində yananı çox,
Qananı ac, qanmazı tox,
Qalmayıb düzü dünyanın.

Dünya axır göz yaşında,
Bərkliyi yoxdu daşın da,
Səni satır sirdaşın da,
Yandırır közü dünyanın.

Çoxu dərd əlində naçar,
Bəxtinə düşmür bir açar,
Pulu olan çəkir hasar,
Qalmayıb düzü dünyanın.

Gözü toxu yaratmayır,
Hamını bir yaşatmayır,
Çoxuna belə çatmayır
Beş metrə bezi dünyanın.

Pis əməllər əməlində,
Yoxdur xoş bir əməli də,
Sözlü qalıb dərd əlində
Yaşayır, özü dünyanın!

## ÖMRÜMÜZÜ YOLLAR HARA APARIR

Ömrümüzü yollar hara aparır!?
Deyirlər keçənlər yazıdan keçir.
Yollar ömrümüzdən günlər qoparır,
Qucaq-qucaq dolu arzudan keçir.

Gözümüz yollara tikilib qalır,
Kiminsə, nəyinsə ardınca baxır.
Bu yollar özüylə ömrü aparır,
Həyat məcrasında su kimi axır.

Yollara bələnib gedir ömür-gün,
Həyat uzandıqca, ömür qısalır.
Çalış yaxşılığın içində görün,
Öləndən sonra da yaxşılıq qalır.

Ömrümüzü yollar hara aparır?
Yollara bələnib gedir ömür-gün.
Gözümüz yollara tikilib qalır,
Düşür kərpicləri bir-bir ömürün.

## KİMSƏ GÜNAHIMI SORUŞMADI Kİ

Əsəndə ömrümə payız yelləri,
Dilim bircə kəlmə danışmadı ki.
Yaşadım bir təhər keçən illəri,
Könlüm bu illərlə danışmadı ki.

İstədim bu xalqı birlikdə görüm,
Qüssə-qəmdən uzaq olsun hər şerim,
Həqiqət sözünü açıqca deyim,
Dilim bu sözlərə alışmadı ki.

Əzəldən yaxşıya yazılmadı bəxt,
Cəlladlar əlində dağıldı tifaq,
Sözlüdən haqq-hesab soruldu hər vaxt
Kimsə günahını soruşmadı ki.

## GÖZƏLDİ

Dostum gəl tikəni haram eyləmə,
Haqsızlıqla yola davam eyləmə.
Saç qaraldıb özün cavan eyləmə,
Dağların başında qarı gözəldi.

Çalışma ki, başa salasan keyi,
Həddən artıq qəbul etmə gəl meyi,
Hər kişinin həyatında üç şeyi,
Namusu, qeyrəti, arı gözəldi.

Yalanı dilinə almaq günahdı,
Bəxt deyilən axıb gedən bir arxdı,
Hər zülmət gecənin sonu sabahdı,
Allahın verdiyi varı gözəldi.

Tanrı tək qoymasın kimsəni heç vaxt,
Sözlü istəməyir ondan tacı-taxt,
Qoy yazılsın hər bir kəsə gözəl bəxt,
Toyuq yuxusunda darı gözəldi.

## DÖNDƏR MƏNİ YURDA SARI

Üzüm yurda tərəf baxmır,
Damarımda qanım axmır.
Can verirəm canım çıxmır,
Döndər məni yurda sarı.

Çox gəzmişəm qərib eldə,
Vətən sözü daim dildə,
Axıt məni coşan seldə,
Göndər məni yurda sarı.

Kəfənsizəm, yox kəfənim,
Kəfənim saçımda dənim,
Başqa qibləm yoxdur mənim,
Döndər məni yurda sarı,
Göndər məni yurda sarı.

